# SPORTSMAN

PARİS 2024

№ 153 / 2024 / 10 manat
www.sportsman.az
Jurnal 2004-cü ildən nəşr olunur

## PARİS-2024:
## PARALİMPİYAÇILARIMIZDAN 4-Ü QIZIL OLMAQLA ÜMUMİLİKDƏ 11 MEDAL




dizayn Offissa
www.offissa.com
Zövqünüzə uyğun ofis mebeli

Global
Human
Resource
Solutions

*Global Solutions for Global Challenges*

# XİDMƏTLƏRİMİZ

- ✓Yüksək kvalifikasiyalı kadrların seçilməsi
- ✓Fəaliyyətin qiymətləndirilməsi
- ✓Təlim və inkişaf
- ✓İR Autsorsinq və Autstaffinq
- ✓İR prosedurların və qaydaların hazırlanması
- ✓Layihələrin idarəolunması
- ✓Əməyin ödənilməsi və mükafatlandırma
- ✓Miqrasiya məsələri və işgüzar səfərlərin təşkili



+994 55 201 91 61
info@globalhrs.org
www.globalhrs.org




(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn
Offissa Dizayn
Offissa Dizayn

Onlayn Kataloq


OCAQ
SPORT KLUBU
AİLƏNİZİN İDMAN OCAĞI
Övladınızın sağlam, fəal və eyni zamanda güclü olmasını istəyirsiniz? O zaman onları gimnastika məşqlərinə yazdırın. İdman məşqləri üçün rahatlıqla etibar edəcəyiniz məkan isə «Ocaq Sport» Klubudur.

# AZART FK











ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ? O ZAMAN ONLARI FUTBOL MƏŞQLƏRİNƏ YAZDIRIN!

ƏLAQƏ NÖMRƏSİ : +99455 869 08 08

WWW.AZART-GROUP.COM

AZART.FK

ABB

Azərbaycan Beynəlxalq Bankı

*Müasir, Faydalı, Universal*

# BU SAYIMIZDA




PARİS-2024: PARALİMPİYAÇILARIMIZDAN 4-Ü QIZIL OLMAQLA ÜMUMİLİKDƏ 11 MEDAL

səh.6



PARALİMPİYA MÜKAFATÇILARI İLƏ GÖRÜŞ

səh.22



“FORMULA 1” “AZƏRBAYCAN QRAN-PRİSİ 2024”

səh.24



"FORMULA-1" AZƏRBAYCAN QRAN-PRİSİNİN ULDUZ QONAQLARI

səh.30



AZƏRBAYCAN QRAN-PRİSİNİN REKORDLARI

səh.32



10-CU VÜQAR HƏŞİMOV MEMORİALI

səh.34



"ƏSRİN MÜQAVİLƏSİ - 30" MİNİFUTBOL TURNİRİ

səh.38



İBA ÇEMPİONLAR GECƏSİ

səh.42



FİDAN MƏMMƏDOVA: "PEŞƏKAR İDMAN ZƏDƏSİZ OLMUR"

səh.44



Son 21 ildə "Qızıl top"a namizəd ilk türk futbolçusu

səh.46



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin və İdman.biz saytının materiallarından istifadə edilib.


***Üz səhifədə:***

Paris-2024 Paralimpiyasının qızıl mükafatçısı, yeni dünya rekordçusu Lamiyə Vəliyeva

# PARİS-2024:

## PARALİMPİYAÇILARIMIZDAN 4-Ü QIZIL OLMAQLA ÜMUMİLİKDƏ 11 MEDAL



Hər beynəlxalq yarış Azərbaycanın bayrağını qaldırmaq, himnini səsləndirmək üçün bir fürsətdir. İdmançılarımız bu vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

Paris-2024 Yay Olimpiya Oyunlarında 2 qızıl, 2 gümüş və 3 bürünc medalla Azərbaycanın tarixində ilk dəfə ümumi hesabda 30-cu yeri tutmasına sevinmişdik. Paralimpiyaçılarımız da Paris-2024-də 11 medalla öz sözlərini dedilər. Medallardan 4-nün qızıl, 2-nin gümüş və 5-nin də bürünc olması sayəsində ölkəmiz ümumi hesabda 28-ci yerə yüksəlib.



# İLK DƏFƏ 7 İDMAN NÖVÜNDƏ

Maraqlıdır ki, Azərbaycan təmsilçiləri Paralimpiya Oyunlarında yarışların başladığı avqustun 29-dan sentyabrın 7-ə kimi, demək olar, hər gün (sentyabrın 1 və 6-sı istisnadır) medal əldə ediblər. Ümumilikdə 18 paralim-



piyaçımızın ilk dəfə yeddi idman növündə yarışdığını və onlardan da səkkizinin mükafatçılar arasında yer aldığını fərəhlə vurğulayaq.




30
AZE




## Atletika, üzgüçülük, cüdo və ilk dəfə də taekvondoda

Rəqəmlər deyir ki, paralimpiyada güclü olduğumuz növlərdən atletikada 3 qızıl və 1 gümüş, üzgüçülükdə 1 gümüş və 3 bürünc, cüdoda 1 bürünc, ilk dəfə taekvondoda da 1 qızıl və 1 bürünc medala imza atdıq. Əvvəllər atıcılıq və pauerliftinq növlərində də medallarımızın olduğunu xatırladaq.







## Tokio-2020-nin qəhrəmanları Paris-2024-də də sözlərini dedilər

Əlbəttə, Paris-2024 Paralimpiya Oyunları qəhrəmanlarının adlarını da bir-bir çəkmək lazımdır.

Xüsusilə paraatletikanın ulduzu Lamiyə Vəliyevanın 100 və 400 m məsafələrə qaçışda nəticələri diqqəti çəkir: 22 yaşlı idmançı, Tokio-2020-də olduğu kimi, bu dəfə də 1 qızıl və 1 gümüş medal qazandı. Özü də o, 100 metr məsafəni 11,76 saniyəyə qət edərək yeni dünya rekordu müəyyənləşdirib.


Ω OMEGA
Women's 100m
NEW WR
AZE 11.76
VALIYEVA LAMIYA


itv HD
AZE
PARA ATHLETICS
AZE LAMIYA VALIYEVA
GOLD - WOMEN'S 100M - T13




*Uzunluğa tullanmada Orxan Aslanov da artıq ikiqat paralimpiya çempionudur.*






*Üzgüçü Raman Saley bundan əvvəl sahib olduğu 4 paralimpiya medalına daha üçünü (1 gümüş və 2 bürünc) əlavə etdi.*






*Əfsanəvi İlham Zəkiyev də 4 paralimpiya medalından ibarət kolleksiyasını daha bir bürünc mükafatla zənginləşdirdi. 44 yaşlı cüdoçu qızıl olan ilk medalını hələ Afina-2004-də qazanmışdı.*






*Tokio-2020-nin bürünc mükafatçısı Səid Nəcəfzadə uzunluğa tullanmada nailiyyətini yaxşılaşdıraraq bu dəfə pralimpiya çempionu oldu.*





*Üzgüçü Vəli İsrafilov isə əksinə - Tokio-2020-də qızıl qazanmışdısa, bu dəfə bürünclə kifayətləndi.*






*Taekvondoçular İmaməddin Xəlilov və Sabir Zeynalov isə Paralimpiya oyunlarında ilk dəfə fəxri kürsünün, müvafiq olaraq, ən yüksək və üçüncü pilləsinə qalxıblar – özü də bürünc mükafatçımızın cəmi 19 yaşı var!*




JPN
AZE



# İlk iştirak, ilk medal, ilk qızıl…

Azərbaycan idmançıları Paralimpiya oyunlarında Atalanta-1996-dan çıxış edirlər. O vaxt “wild card”la iki vəsiqə əldə edən təmsilçilərimizdən Aleksandr Antofiy marafon qaçışında 4-cü, Gündüz İsmayılov isə pauerliftinqdə 7-ci olub.

Sidney-2000-də ilk medal qazanılıb. 24 kişi arasında yeganə qadın olaraq Yelena Taranova miks yarışlarda 25 metr məsafəyə tapançadan güllə atıcılığında gümüş mükafata sahib çıxıb.



Medallists

| | | | |
|---|---|---|---|
| 🥇 | CHOI Jong In | | KOR |
| 🥈 | TARANOVA Yelena | | AZE |
| 🥉 | SORIANO SAN MARTIN Francisco Angel | | ESP |

İlk qızılı isə Afina-2004-də qazanmışıq: 2 idmançımız çempion olub.

Pekin-2008-də - 2 qızıl medal, London-2012-də - 4 qızıl medal və ümumi reytinqdə 27-ci yer.

Rio-2016-da qazanılan qızıl sayı 1-ə ensə də, Tokio-2020-də paralimpiyaçılarımız 14 qızıl medalla ümumi hesabda 10-cu yeri tutublar.

## Saley, Zəkiyev, Panyutin, Vəliyeva və Aslanov

Üzgüçü Raman Saley Paris-2024-də çempion olmasa da, 3 paralimpiya qızılına sahibdir. İkiqat paralimpiya çempionlarımızın sayı isə artıb. Əvvəllər Paralimpiya oyunlarında 2 qızıl medal qazanmış İlham Zəkiyev və uzunluğa tullanma və üçtəkanla tullanmada qalib olan Oleq Panyutinə Paris-2024-də Lamiyə Vəliyeva və Orxan Aslanov da qoşulub.

Ümumilikdə 27 qızıl medaldan 11-i cüdoda, 10-u atletikada, 5-i üzgüçülükdə və 1-i də taekvondoda qazanılıb.



# Paralimpiya mükafatçıları ilə görüş

***Sentyabr ayının 28-i əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Paris-2024 Yay Paralimpiya Oyunlarında medal qazanan paralimpiyaçılar və onların məşqçiləri ilə görüşüb.***

Nazir Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edərək onlara növbəti yarışlarda da qələbələr arzulayıb. Sahil Babayev qeyd edib ki, paralimpiya komandamızın 169 ölkə arasında 28-ci yerdə qərarlaşması yüksək nailiyyətdir.

Prezident İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən Paralimpiya hərəkatının inkişafına yüksək diqqət və qayğısı nəticəsində paralimpiyaçılarımızın qələbələrinin artdığı vurğulanıb.








qeyd edilib.

Bu sahənin inkişafında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Milli Paralimpiya Komitəsi tərəfindən görüləcək birgə işlərə dair fikir mübadiləsi aparılıb.

Paris-2024 Yay Paralimpiya oyunlarının medalçıları İlham Zəkiyev və Lamiyə Vəliyeva, Parataekvondo üzrə milli komandamızın baş məşqçisi Fərid Tağızadə çıxış edərək göstərilən diqqətə görə təşəkkürlərini bildiriblər, ölkəmizi yeni qələbələrlə sevindirəcəklərinə əminliklərini ifadə ediblər.




Dövlət başçısı tərəfindən paralimpiyaçıların sosial rifahının daim diqqətdə saxlanıldığı, bu ildən paralimpiya çempionları üçün xüsusi paralimpiya təqaüdünün təsis edildiyi, həmçinin medal qazanan idmançıların və onların məşqçilərinin mükafatlandırıldığı, habelə onların dövlət təltifləri ilə təltif edildiyi diqqətə çatdırılıb.

Yeniyetmə paralimpiyaçıların da iştirak etdiyi görüşdə ölkəmizdə hər il keçirilən Uşaq Paralimpiya İdman Oyunlarının paralimpiya hərəkatının inkişafında müstəsna rol oynadığı






*2013-cü ildə Bakıda “Formula 1” yarışlarının keçirilməsi ilə bağlı aparılan danışıqlar uğurlu alınır. 2014-cü ildə imzalanan müqaviləyə əsasən “Avropa Qran-Prisi” adlanan bu yarış 2015-ci ildə keçirilməli idi. Lakin yarış bu il təxirə salınaraq 2016-cı ilin aprel ayında keçirilib. Növbəti ildən isə adı da dəyişilərək “Azərbaycan Qran-Prisi” adlandırılıb.*

*Hermann Tilkenin memarlıq bürosu tərəfindən layihələndirilən küçə marşrutu tarixi mərkəzdə, Dənizkənarı bulvar və Hökumət evi boyunca, qismən də Köhnə şəhərdə müəyyən edilib. Bakıdakı tras şəhər*






yarışlarının ən sürətlisidir, builki təqvimdə dairənin uzunluğuna görə o, yalnız Spa və Ciddədən, döngələrin sayına görə isə Sinqapur və Əbu-Dabidən sonra ikinci yerdədir. O, həmçinin saat əqrəbinin əksinə doğru dönür. Düz yolun sonunda maksimal sürət təxminən saatda 370 kilometrdir. Bu, şəhər traslarının ən sürətlisidir, o, tribunalarda və televiziya ekranları qarşısında pərəstişkarlar tərəfindən hiss olunacaq unikal abu-hava ilə tarixi mərkəzdə salınıb. Bakının mədəniyyəti və tarixi bu layihənin əsas hissəsinə çevrilib.

Konfiqurasiyaya 12-si sola və səkkizi isə sağa olmaqla iyirmi döngə daxildir, habelə onlardan səkkizi 90 dərəcədir. Trasın eni İçərişəhərdə yeddinci və səkkizinci döngələr sahəsindəki geniş hissədə 13 metrdən 7,6 metrə qədərdir.

Tras Bakı şəhərinin əksər hissəsi kimi, demək olar ki, tamamilə dəniz səviyyəsindən aşağıdadır - yalnız 13 və 14-cü döngələr dəniz səviyyəsindən bir qədər yüksəkdir.



*Dairə Neftçilər prospektindən başlayır. Birinci sektor dəbdəbəli ərazilərdən keçir, yeddinci döngədən sonra tras İçərişəhərə doğru dar və yavaş hissə ilə əvəz olunur, üçüncü sektorda isə 16-dan 20-dək döngələr və sonrakı düz hissə gəlir. Məhz bu yolda pilotlar maksimum sürət yığaraq əyləcləri soyudurlar. Bunun ardınca ciddi tormozlama baş verir, burada sürücülər tez-tez təkərləri bağlayır və təhlükəsizlik zonasına doğru irəliləyirlər.*

*Maraqlı cəhətlərdən biri də odur ki, bolidlər Neftçilər prospektində əks istiqamətlərdə hərəkət edir; 6-cı döngədən 7-yə bir istiqamət və 19-dan 20-yə kimi əks istiqamət xüsusi hasarla ayrılıb.*

Sentyabr ayının 13-15-i tarixlərində Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin sayca 8-ci yarışı keçirilib. Qran-Prinin açılış mərasimi Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Dövlət Himnini Avroviziya-2022-də Azərbaycanı təmsil edən Nadir Rüstəmli səsləndirib. Mərasimdə himn





klassik üslubda ifa edilib və səhnə tərtibatı açılan xalça motivini xatırladıb. "Xan Qarabağ" xalçalarının sadə naxışlarından ilhamlanaraq hazırlanmış səhnə Azərbaycanın zəngin mədəni irsini əks etdirib.

Açılışdan sonra Formula 1 Azərbaycan Qran-Prisi start götürüb. Formula 1 yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Sürücülər qalibi müəyyənləşdirmək üçün Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurublar.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda "McLaren"in avstraliyalı pilotu Oskar Piastri Qran-Prinin qalibi olub. Şarl Lekler ("Ferrari") ikinci, Corc Rassell ("Mercedes") üçüncü sırada qərarlaşıb.

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Böyük Britaniya və Avstraliya Dövlət Himnləri səsləndirilib.




Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və "Qatar Airways"in Afrika üzrə vitse-prezidenti Hendrik Du Preez təqdim ediblər.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinə sentyabrın 13-də start verilib. İlk gündə keçirilmiş birinci sərbəst yürüşdə "Red Bull" komandasının niderlandlı sürücüsü Maks Ferstappen, ikinci sərbəst yürüşdə "Ferrari"də çıxış edən monakolu Şarl Lekler finişə hamıdan tez çatıblar.

Ayın 14-də təşkil olunmuş üçüncü sərbəst yürüşdə ən yaxşı nəticəyə "Mercedes"in britaniyalı pilotu Corc Rassell, sıralama turunda isə Şarl Lekler imza atıb.

Builki dünya çempionatına fevralın 29-dən martın 2-dək Bəhreyn Qran-Prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanı, Avstraliya və Yaponiya, Çin, ABŞ, İtaliya (İmola), Monako, Kanada, İspaniya, Avstriya, Böyük Britaniya, Macarıstan, Almaniya, Niderland və İtaliyada (Monza) təşkil olunub. Yarışlara dekabrın 6-8-də Əbu-Dabidə yekun vurulacaq.

Beləliklə, 16 Qran-Pridən sonra pilotların siyahısında "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen 313 xalla liderdir. "McLaren"də çıxış edən Lando Norris 254 xalla ikinci yeri tutub. İlk "beşliy"i isə 235 xalla Şarl Lekler ("Ferrari"), 222 xalla Oskar Piastri ("McLaren"), 184 xalla Karlos Sayns ("Ferrari") tamamlayıblar.

Konstruktorlar kubokuna isə






476 xalla "McLaren" komandası başçılıq edir. "Red Bull" 456 xalla ikinci, "Ferrari" 425 xalla üçüncü pillədə yer alıblar.

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Sentyabrın 13-də Formula 2 üzrə sərbəst yürüş və sıralanma yarışı təşkil olunub. Birinci sərbəst yürüşdə "Van Amersfoort" komandasının braziliyalı pilotu Enzo Fittipaldi, sıralama turunda isə "Trident"də çıxış edən niderlandlı sürücü Rixard Versxor finişə hamıdan tez çatıb. Ertəsi gün isə sprint yarışı baş tutub. Ən yaxşı nəticəni "PHM AIX Racing" komandasının paraqvaylı pilotu Yosua Dürksen göstərib.

Sentyabrın 15-i keçirilən əsas yarışda isə R.Versxor Formula 2 Azərbaycan Qran-Prisinin qalibi olub.






## "Formula-1" Azərbaycan Qran-prisinin ulduz qonaqları

Əvvəllər olduğu kimi, bu dəfə də Azərbaycan Qran-prisinin ulduz qonaqları olub. Ötən həftəsonu keçirilən "Formula-1" yarışını izləmək üçün Bakıya britaniyalı supermodel, aktrisa və müğənni Naomi Kempbell, amerikalı aktyor, rejissor və hip-hop ifaçısı Vill Smit, kolombiyalı reggaeton ifaçısı J Balvin kimi məşhurlar təşrif buyurub.





## Ən çox qazanan "Formula-1" PİLOTU

İngiltərə mətbuatı "Formula-1"də ən çox qazanan pilotların adalarını açıqlayıb.

Ümumilikdə, 20 sürücü, bonuslar istisna olmaqla, ildə təxminən 205 milyon funt-sterlinq qazanır. Siyahıya isə hazırkı dünya çempionu Maks Ferstappen başçılıq edir. Onun illik qazancı 58 milyon dollardan artıqdır.

İlk onluq isə aşağıdakı kimidir:

1. Maks Ferstapen (Niderland) – 58,859,503 milyon dollar
2. Lyus Hemilton (Böyük Britaniya) - 44,471,625
3. Şarl Lekler (Monako) - 34,003,831
4. Lando Noris (Böyük Britaniya) - 19,616,498
5. Fernando Alonso (İspaniya) - 18,309,197
6. Corc Rassel (Böyük Britaniya) - 18,309,197
7. Serxio Peres (Meksika) - 14,387,194
8. Karlos Sans (İspaniya) - 11,771,877
9. Valteri Bottas (Finlandiya) - 9,155,717
10. Daniel Rikkardo (Avstraliya) - 6,539,174



Maks Ferstapen



Lyus Hemilton



Şarl Lekler



Lando Noris



Fernando Alonso




## Azərbaycan Qran-Prisinin rekordları

Bakı növbəti dəfə ev sahibliyi etdiyi "Formula 1" üzrə Azərbaycan Qran-Prisi yeni rekorda imza atıb. Sentyabrın 13-15-də baş tutmuş möhtəşəm idman yarışını tribunalardan və ayaqüstü izləyənlərin sayı son 8 ildə ən yüksək həddə çataraq 76 minə yüksəlib. Tribunalar hələ yarış başlamamış tam dolub. Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkəti bu il daha 2 yeni tribuna quraşdırılmaqla sayı ümumilikdə 10-a çatdırıb.

Ötən illə müqayisədə izləyici yerlərinin sayında 35 faiz artım olub. Maraqlı faktlardan biri Azərbaycanın yerli azarkeş sayına görə top 5 ölkə sırasında yer almasıdır. Artan marağı nəzərə alaraq, gələn il azarkeş yerinin artırılması nəzərdə tutulur.

Bu il könüllü və marşal müraciətləri də rekord həddə çatıb. Belə ki, yarışda iştirak etmək üçün 4 gün ərzində 16 mindən çox namizədin müraciəti qeydə alınıb. 2 minə yaxın könüllü seçim mərhələlərindən uğurla keçməklə iştirakını təsdiq edib. Yarış müddətində 1400-ə yaxın marşal cəlb olunub. Onların 100-dən çoxu əcnəbi olub.




Builki Bakı yarışını 300-ə yaxın media nümayəndəsi işıqlandırıb. Bunların 200-ə yaxını beynəlxalq jurnalistlər olub. Dünya media nəhəngləri Sky Sports, Motorsport, Canal+, Netflix, The Sun və sair bu sırada yer alaraq, 3 gün ərzində həyəcanlı Bakı yarışını bütün dünya ilə paylaşıblar.

Yarış həftəsonu təkcə qəzalarla deyil, həm də əyləncə-konsert proqramı ilə yadda qalıb. Fan zonada bu il ilk dəfə Formula 1-ə aid bütün aktivasiya quraşdırılmışdı. Məşhur əyləncə aktivasiya stendləri, tanınmış pilotlarla keçirilən avtoqraf sessiyaları, musiqi proqramları və rəqslər azarkeşlərə unudulmaz anlar bəxş edib.

Bundan başqa, Kristal zalda keçirilən konsertlər – Uill Smit, DJ Black Coffee və J Balvinin səhnə performansları həftəni əsl əyləncə festivalına çevirib.

Yarışın özü isə tamaşaçıları hər an diqqətdə saxlayıb. Bakı treki yenə öz məşhur dar döngələri və sürətli düz yolları ilə pilotlara çətin anlar yaşadıb. Ard-arda qəzalar həyəcanı daha da artırıb. “Red Bull”un pilotu Serxio Peresin avtomobili gözlənilmədən təhlükəsizlik maneəsinə çırpılıb, “Ferrari”də çıxış edən Şarl Leklerin bolidi isə döngədə kontroldan çıxıb. Ən maraqlı məqam isə “McLaren” komandasının gənc sürücüsü Oskar Piastrinin toqquşmalardan ustalıqla yayınaraq 51 dövrəni lider olaraq tamamlaması olub. Bu onu deməyə əsas verir ki, avstraliyalının gərgin idman mübarizəsi şəraitində keçən yarışda göstərdiyi performans uzun müddət yaddaşlarda qalacaq. Ş.Lekler və “Mercedes”in üzvü Corc Rassel isə sıx rəqabət apararaq ikinci və üçüncü yerləri tutublar.

Bu il Bakı Şəhər Halqası Əməliyyat Şirkəti sürücülərin rahatlığı üçün yarışla əlaqədar bağlanmış yolları sürətlə açıb. Nəqliyyat məhdudiyyətləri 8 ildə ilk dəfə olaraq 24 saat tamam olmadan aradan qaldırılıb.




# 10-CU VÜQAR HƏŞİMOV MEMORİALI

***Sentyabrın 25-i ənənəvi Vüqar Həşimov memorialı turnirinin iştirakçıları Bakıda bir araya gəlib. KİV nümayəndələrinin də qatıldığı tədbir mərhum şahmatçımızın məzarı qarşısında təşkil edilib.***

Tanınmış həmkarımız Sənan Şəfizadənin tədbir iştirakçılarını salamlamasından sonra turnirin direktoru Anar Allahverdiyev, Təşkilat Komitəsinin sədri Qasım Həşimov, 2 il əvvəl turnirin qalibi olmuş Nodirbek Abdusattorovun atası Fazliddin Oçilov da ürək sözlərini çatdırdılar.

Bundan sonra avtobus və avtomobil karvanı turnirin keçiriləcəyi Şuşa şəhərinə yola düşdü.





Qeyd edək ki, Vüqar Həşimov Şahmat Fondu, Azərbaycan Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən və 8 şahmatçının qatıldığı yarış 3 gün - 26-28 sentyabr tarixlərində keçirilib. İştirakçılar rapid və blitsdə mübarizə aparıblar. Qalib iki turnirin nəticəsinə əsasən müəyyənləşib.

Turnirdə Yan Nepomnyaşi, Vladislav Artemyev (hər ikisi Rusiya), Riçard Rapport (Macarıstan), Aravind Çatambaram (Hindistan), Nodibrek Abdusattorov (Özbəkistan), Şəhriyar Məmmədyarov, Rauf Məmmədov və Aydın Süleymanlı (hər üçü Azərbaycan) mübarizə aparıb. İlk iki gündə rapid, sonra isə blits oynanılıb.








8 qrossmeysterin mübarizəsində qalib 14 turdan sonra müəyyənləşib. 14 turun nəticələrinə əsasən Yan Nepomnyaşi (FIDE) 19 xalla turniri qalib kimi başa vurub. Özbəkistanlı Nodirbek Abdusattorov 18 xalla ikinci yerdə qərarlaşıb. 16 xal toplayan Azərbaycan millisinin üzvü Şəhriyar Məmmədyarov isə üçüncü yerlə kifayətlənib.

Sentyabrın 30-u isə onuncu dəfə keçirilən Vüqar Həşimov Memorialının iştirakçıları üçün Şuşada gəzinti turu təşkil edilib. Tur zamanı iti zəka sahibləri Cıdır düzü və İsa Bulağında gəzərək xatirə şəkilləri çəkdiriblər.








**Mahir Məmmədov**
*AŞF-nin prezidenti*
*FİDE-nin vitse-prezidenti*

## "Yarışa ən güclüləri dəvət edirik"

Bilirsiz ki, Vüqar Həşimov Memorialı turnirinin özəl və şanlı tarixi var. FİDE-nin və Azərbaycan Şahmat Federasiyasının təqvimində yer almış bir yarışmadı. Arxada qalan illər ərzində Həşimov Memorialı Azərbaycanın müxtəlif bölgələrində təşkil edilib və bu dəfə isə ilk dəfə ölkəmizin mədəniyyət mərkəzi olan Şuşa şəhərində təşkil olunub. Dünya şahmatçıları bu yarışı gözləyirlər və hər dəfə olduğu kimi, bu dəfə də dünyanın ən güclü zəka sahibləri Şuşaya gəliblər. Bizim lider şahmatçılarımız, Olimpiadadan yeni qayıdan Şəhriyar Məmmədyarovla Rauf Məmmədov da turnirdə iştirak etdilər. Turnirin səviyyəsi ən yüksək səviyyədə idi. Çünki yarışa ən güclüləri dəvət edirik və bu ənənə davamlı olacaq.

Olimpiya çempionu, dünyanın ən güclü şahmatçılarından biri olan Nodirbek Abdusattorov, 2 dəfə dünya ikincisi Yan Nepomnyaşi, Riçard Rapport kimi şahmat ustalarının da adını çəkərdim. Siyahını bir qədər də uzatmaq olar. Yubiley turnirində çox güclü şahmatçılar mübarizə apardılar. Əminəm ki, şahmatsevərlər bu dəfə də maraqlı partiyalar izlədilər. İnanıram ki, Şuşa daha bir neçə dəfə Vüqar Həşimov Memorialını qəbul edəcək.






# "ƏSRİN MÜQAVİLƏSİ - 30" MİNİFUTBOL TURNİRİ

*Əsrin müqaviləsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu müqavilə ilə Azərbaycan yeni inkişaf erasına daxil oldu.*

*1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı Azəri–Çıraq–Günəşli yataqlarının dərin su qatlarındakı neftin birgə hasilatı haqqında müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. Müqavilənin 13 milyard ABŞ dolları həcmində qiymətləndirilməsi onun nə üçün "Əsrin müqaviləsi" adlandırılması sualına verilən cavablardan biri ola bilər. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (ARDNŞ, Amoco, BP, McDermott, UNOCAL, Lukoyl, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoyl, ITOCHU, Ramco, Delta) iştirak etmişdir. Elə o tarixdən də "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlanıb.*



# FUTBOL

Avqust ayında bu əlamətdar hadisəyə - "Əsrin müqaviləsi"nin 30 illiyinə həsr olunmuş SOCAR-2024 minifutbol turnirinə start verilib. Yarışda 28 komanda hərəsində 4-ü olmaqla 7 qrupda mübarizə aparıb.

SOCAR-ın dəstəyi, "Neftçi" İdman Klubunun təşkilatçılığı ilə neft, qaz və kimya sənayesi müəssisələrinin əməkdaşları arasında keçirilən turnirin qalibləri isə sentyabrın 30-u bəlli olub.



Bakı Tennis Akademiyasında təşkil olunan tədbirdə öncə „SOCAR Downstream Management“ və "Azneft" İB-nin komandaları üçüncü yer uğrunda mübarizə aparıblar. Qarşılaşmada "Azneft" İB-nin komandası rəqibini 4:0 hesabı ilə məğlub edib və üçüncü pillədə qərarlaşıb.



Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra turnirə həsr olunmuş videoçarx nümayiş etdirilib.






Daha sonra final qarşılaşmasına start verilib. Həlledici görüşdə “Balakhani Operating Company LTD” və “Azəriqaz” İstehsalat Birliyinin komandaları üz-üzə gəlib. Maraqlı və gərgin mübarizə şəraitində baş tutan oyunda “Balaxanı” Əməliyyat Şirkətinin komandası rəqibi üzərində 4:2 hesablı qələbə qazanıb və turnirin qalibi olub. “Azəriqaz” İstehsalat Birliyinin kollektivi isə ikinci yeri tutub.

Sonda mükafatlandırılma mərasimi keçirilib. 1-ci, 2-ci və 3-cü yeri tutmuş komandalara kubok, diplom və medallar təqdim olunub.

Bundan əlavə, nominasiyalar üzrə qaliblər də mükafatlandırılıb. On beş qola imza atmış SOCAR Downstream Management komandasının futbolçusu Əşrəfağa Əşrəfzadə “Ən məhsuldar oyunçu”, “Balaxanı” Əməliyyat Şirkətinin komandasından Toğrul Hacıyev isə “Ən yaxşı qapıçı” nominasiyasının qalibi olub. Final qarşılaşmasının hakimləri Mahir Məmmədov və Kənan Məlikov da mükafatlandırılıblar.

Mükafatları “Neftçi” İdman Klubu İdarə Heyətinin sədri Hafiz Zeynalov və klubun yetirməsi, cüdo üzrə Olimpiya çempionu Hidayət Heydərov təqdim ediblər.

Daha sonra “Balakhani Operating Company LTD” şirkətində keçirilən görüşdə kuboku qürur hissi ilə təmsil etdikləri qurumun prezidenti Rövşən Rzayevə təqdim edən komandanın kapitanı Rəşad Quliyev vurğulayıb ki, turnirdə heyəti qələbəyə aparan Balaxanı neftçilərinə məxsus fədakarlıq, qarşılıqlı inam və birlik ruhu idi. O, şirkət rəhbərliyinə onlara verdiyi dəstək və etimada görə minnətdarlığını bildirib.






Şirkət prezidenti Rövşən Rzayev isə qeyd edib ki, “Əsrin müqaviləsi”nin 30 illiyinə həsr olunmuş turnirdə qələbə Azərbaycanın quru yataqlarında neft hasilatı ilə məşğul olan ən böyük əməliyyat şirkəti olaraq “Balakhani Operating Company LTD”yə rəmzi ilham mənbəyidir. O, hər bir futbolçunu nailiyyətlə bağlı təbrik edərək bildirib: “Oyun meydançasında nümayiş etdirdiyimiz mükəmməliyi neft mədənlərində də birgə nümayiş etdirməkdə davam edəcəyik”.

***Kama RZA***





# İBA ÇEMPİONLAR GECƏSİ

***Sentyabrın 28-i Azərbaycanda ilk dəfə Beynəlxalq Boks Assosiasiyasının (IBA) Çempionlar Gecəsi keçirilib. Azərbaycan Boks Federasiyasının (ABF) 100 illiyi çərçivəsində Milli Gimnastika Arenasında təşkil olunan gecə "Natiq" ritm qrupunun çıxışı ilə başlayıb.***



Sonra isə döyüşlərə start verilib. Burada dünyanın ən güclü boksçularının iştirakı ilə 8 döyüş baş tutub.

Bu görüşlərin 4-də Azərbaycan idmançıları da təmsil olunub. 51 kiloqramda Avropa çempionu Nicat Hüseynov Con Zulueta (Filippin) ilə üz-üzə gəlib. Dünya çempionatının mükafatçıları Sərxan Əliyevlə (71 kiloqram) Məhəmməd Abdullayev (+92 kiloqram) müvafiq olaraq, Monx-Erdene Urançimeq (Monqolustan) və Kristian Salsedo (Kolumbiya) ilə qarşılaşıb.

Çempionlar Gecəsində üçqat dünya çempionu Məhəmmədrəsul Məcidov (+92 kiloqram) da rinqə çıxıb. Onun rəqibi isə qazaxıstanlı Nursultan Amanjolov olub.

Müxtəlif federasiya rəsmilərinin, xarici qonaqların, KİV nümayəndələrinin və çoxsaylı azarkeşlərin Milli Gimnastika Arenasında izlədiyi gecədə rinqə ilk olaraq Sərxan Əliyevlə (71 kq, Azərbaycan) Monx-Erdene Urançimeq (Monqolustan) çıxıb. 6 raundluq döyüş boksçumuzun inamlı qələbəsi ilə yekunlaşıb.

Dünya çempionatı mükafat-

çısının ardınca Avropa çempionumuz Nicat Hüseynov (51 kq) mübarizəyə qoşulub. Con Zulueta (Filippin) ilə döyüşən millinin üzvü rəqibini məğlub edib. O da 6 raundluq görüşü tam qələbə ilə aktivinə yazdırıb.

Azərbaycan Boks Federasiyasının 100 illiyi çərçivəsində baş tutan gecədə azarkeşlərə növbəti sevinci Məhəmmədrəsul Məcidov (+92 kq) yaşadıb. Üçqat dünya çempionumuz 6 raundun yekununda qazaxıstanlı Nursultan Amanjolovdan güclü olub.




Komanda yoldaşlarının uğurunu Məhəmməd Abdullayev də davam etdirib. +92 kq-da döyüşən dünya çempionatı mükafatçısı Kristian Salsedonu (Kolumbiya) məğlub edib. Abdullayev 8 raundluq qarşılaşmanın qalibi kimi İBA Çempionlar Gecəsində 4-cü qələbəmizi rəsmiləşdirib.

Beləliklə, İBA Çempionlar Gecəsində çıxış edən boksçumuzun hər biri görüşdə qələbə qazanıb!

***Tahir Hümmətov***
*ABF-in mətbuat katibi*





# "PEŞƏKAR İDMAN ZƏDƏSİZ OLMUR"

***Zədələr üzündən peşəkar karyerasını erkən bitirən idmançılar kifayət qədərdir. Onların müalicəsi isə hər zaman uğurlu alınmır. Aktual mövzunu araşdırmaq üçün "SolidMED" Fizioterapiya və Reabilitasiya klinikasının qonağı olduq. Klinikanın baş həkimi Fidan Məmmədova ilə müsahibəni diqqətinizə çatdırırıq.***

**- Fidan xanımı yaxından tanıyaq...**

- Mən, Fidan Məmmədova, 1991-ci ildə idmançı və polis ailəsində anadan olmuşam. Orta təhsilimi Bakı şəhərində bitirdikdən sonra, Avropanın qabaqcıl tibb universitetlərindən biri sayılan Tbilisi Dövlət Tibb Universitetinin Fiziki müalicə və Tibbi Reabilitasiya fakültəsini ingilis dilində bitirmişəm. Məzun olduqdan sonra ABŞ-ın New Vision universitetində idman fizioterapiyası və bərpası üzrə təhsilimi davam etdirərək uzmanlıq dərəcəsi almışam. Uzmanlıq təhsilim zamanı metodiki və tətbiqi olaraq fizioterapiya sahəsində dünyada ən qabaqcıl olan və bu sahənin inkişafına böyük töhfələri olan koreyalı alim və professorlardan dərs almışam və asisstent-həkim olaraq birlikdə çalışmışam. Təhsilimi başa vurduqdan sonra Türkiyə Cümhuriyyəti Ankara Güvən xəstəxanasında həkim-rezident kimi çalışmışam. 2019-cu ildən vətənimizdə uzm. Həkim fizioterapevt olaraq peşəmi davam etdirirəm. Hal-hazırda SolidMED klinikasının təsisçisi və baş həkimiyəm.

Xaraktercə əzmkar insanam, heç bir çətinlikdən qorxmaram. Hər bir çətinliyin öhdəsindən gəlməyə çalışıram. Daima bu sahədə xəstəliklərə dair yeni müalicə metodlarını, protokollarını gündəmdə saxlayıram. Bundan əlavə musiqiyə də böyük həvəsim var. Ağır və stressli iş günümün sonunda gitara ilə bir neçə nəğmə ifa etmək mənəvi və fiziki olaraq dincəlməyimə kömək edir. Həmçinin əsas hobbilərim arasında yeni dillər öyrənmək var. İngilis, Rus,- Türk, Alman və Gürcü dillərini ana dili səviyyəsində mükəmməl bilirəm. Hal-hazırda İspan və Fransız dillərini öyrənirəm.

**- İdmana münasibətiniz necədir?**

İdmana münasibətim əlbəttə, əladır. İdman hər zaman ailəmizin və həyatımızın bir parçası olub. Təhsil aldığım dövrlərdə böyük idman yarışlarında, ağır atletika üzrə Avropa və Dünya çempionatlarında, futbol və voleybol çempionatlarında həkim olaraq çalışmışam. Özümü böyük idman ailəsinin bir üzvü olaraq görməkdən qürur duyuram.

**- Peşənizdə sizi ən çox sevindirən hallar nələrdir?**



- Əlbətdə ki, hər bir həkim kimi məni də pasiyentlərimin sağalmağı sevindirir. Ən çox serebral iflicli körpə pasiyentlərimin yenidən gəzdiyini, normal həyat tərzinə qovuşduğunu görmək və peşəkar idmançı pasiyentlərimin yarışlarda uğur qazanmaqları mənim üçün həm sevinc, həm də qürur hissidir.

**- Fidan xanım, çalışdığınız sahə yeni və maraqlı bir sahədir. Nəyə görə fizioterapiya mütəxəssisi olmağı seçdiniz?**

- İlk öncə qeyd etmək istərdim ki, ailəmizdə atam, anam və qardaşım professional idmançılardır. İdmançı ailəsində doğulub, böyüdüyüm üçün daim onların etdikləri məşqlərə, aldıqları travmalara şahid olmuşam. Ölkəmizdə fizioterapiya sahəsində peşəkar mütəxəssis çatışmazlığından idmançılarımızın travmalarının tam sağalmadığını və bundan əziyyət çəkdiklərini müşahidə etmişəm. Bu səbəbdən fizioterapiya və reabilitasiya sahəsi üzrə addımlamağa qərar verdim.

**- Peşənizdə hansı xarakteristik keyfiyyətlər daha vacibdir?**

- Fizioterapiya çoxşaxəli sfera olduğu üçün pasi-



yentlərimiz arasında yaş məhdudiyyəti yoxdur. Yenidoğulmuş körpə, ahıl yaşda olan pasiyentlərimiz də var. Biz hər bir pasiyentə ailəmizin bir fərdi kimi yanaşırıq, narahatlıqlarını dinləyib onlara yardım etmək üçün əlimizdən gələni edirik. Bütün bunları yerinə yetirmək bizdən həm fiziki, həm də zehni güc tələb edir. Yaxşı mütəxəssis olmaq üçün insani keyfiyyətlər də önəmlidir. Səbrli, dayanıqlı olmaq, stress altında işləmək, yardımsevərlilik, komanda şəklində çalışmaq kimi xüsusiyyətlər peşəmizdə vacibdir.

**- Fidan xanım, fizioterapiya və reabilitasiya nədir və insanların sağlamlığında nə kimi rol oynayır?**

- Fizioterapiya fiziki və təbii amillərin istifadəsi ilə müalicə və profilaktika üsuludur. Misal üçün isti və soyuq terapiyalar, maqnit, müxtəlif növ elektroterapiyalar və s. Reabilitasiya isə anadangəlmə və ya keçirilmiş xəstəliklər, travmalar və əməliyyatlardan sonra orqanizmin maksimal dərəcədə bərpa edilməsi və möhkəmlənməsinə yönləndirilmiş tədbirlər kompleksidir. Biz öyrəşmişik ki, hər hansı bir yerimizdə ağrı və narahatlıq hiss etdiyimiz zaman dərman qəbul edək. Amma bu həmişə çarə olmur və bir simptomu aradan qaldırarkən, digər orqanlara mənfi təsir göstərir. Bu səbəbdən də fizioterapevtik prosedurlar daha çox effektiv olur, əks təsiri minimaldır, dərmanlarda olduğu kmi toksik effekt vermir və asılılıq yaratmır.



**- Fizioterapiyada ən çox hansı xəstəliklər müalicə olunur?**

- Fizioterapiya çox geniş bir sahədir, sadalamaqla bitməz. Bir neçə misal çəkə bilərik. Məsələn idman travmaları, ortopedik problemlər (yastıpəncəlik, onurğa əyrilikləri, əzələ gərginliyi), müxtəlif mənşəli ağrılar, miqren ağrıları, dermatoloji xəstəliklər, nevroloji və pediatrik xəstəliklər, əməliyyat sonrası bərpa və s.

**- Sizə görə ən travmatik idman növü hansıdır?**

Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, ən travmatik idman növləri futbol və döyüş əsaslı idmanlardır (güləş, boks, cüdo, taekvando, qaydasız döyüş). Bununla yanaşı ağır və yüngül atletika, gimnastika kimi idman növlərində də yetəri qədər ciddi travmalara rast gəlmək mümkündür. Ümumiyyətlə, peşəkar idman zədəsiz olmur.

**- Professional idmançıların müalicəsində prinsipləriniz nələrdir?**



Professional idmançıların müalicəsində başlıca prinsipimiz individual yanaşmadır. İdman növlərindən asılı olaraq müalicə üsulları da fərqli olur. Misal üçün futbolçuların müalicəsində idmançının komandada hansı pozisiyada oynadığı belə böyük önəm kəsb edir və ona uyğun müalicə tətbiq olunur. Buna görə də hər bir idmançıya məşğul olduğu idman növünə və onun idman stilinə uyğun müalicə tətbiq etmək mütləqdir. Müayinənin nəticələrinə əsasən idmançıların vəziyyətini təhlil edir, onların məşq və yarışlara hazırlığını qiymətləndiririk. Biz həmçinin mümkün zədələrin qarşısını alırıq, farmakoloji dərmanların qəbuluna nəzarət edirik, psixoemosional sağlamlığa nəzarət edirik. Professional idmançıların müalicəsi ilə sıravi pasiyentlərin müalicəsindəki başlıca fərq zaman azlığıdır. Bu işdə əsas məqsədimiz professional fərdi yanaşma ilə pasiyentimizi tez bir zamanda tam sağlam şəkildə idman arenalarına geri qaytarmaqdır.



# SON 21 İLDƏ "QIZIL TOP"A NAMİZƏD İLK TÜRK FUTBOLÇUSU

***Türkiyə millisi və "İnter"in yarımmüdafiəçisi Hakan Çalhanoğlu 21 illik fasilədən sonra rəsmi adı "Ballon d'Or" olan "Qızıl top" mükafatına namizədlər arasında yer alan ilk türk futbolçusu olub.***

Türkiyə təmsilçiləri arasında sonuncu dəfə bu şərəfə 2003-cü ildə "Real Sosyedad"da oynadığı vaxt Nihat Kahveci layiq görülüb: o, sorğuda 3 xal toplayaraq italiyalı Françesko Totti ilə 18-19-cu yerləri bölüşdürüb.

Yayda Çalhanoğlu Türkiyə millisi ilə Avro-2024-də kifayət qədər uğurlu çıxış edərək turnirin dörddəbir finalına yüksələ bilib. Ulduz yarımmüdafiəçi, eyni zamanda, Rüştü Reçberdən sonra üç Avropa çempionatında iştirak edən ikinci türk futbolçusu olub. O, Almaniyada keçirilən turnirdə Çexiyaya 2:1 hesabı ilə qalib gəldikləri son qrup oyununda qol da vurub.

Çalhanoğlu ötən mövsüm xüsusilə "İnter"də əla çıxış edib. O, 32 oyunda 13 qol vurub (şəxsi rekordu!) və üç məhsuldar ötürmə verərək 20-ci skudettosunu qazanan (Çalhanoğlunun siftəsi) Simone İnzaginin komandasında aparıcı oyunçulardan biri olub. Rəsmən A seriyasının ən yaxşı yarımmüdafiəçisi seçilib və "SofaScore"un qiymətləndirməsinə görə, müvafiq olaraq, ortalama 7.31 və 7.68 nəticələrlə son iki mövsümdə İtaliya





çempionatının ən yaxşı oyunçusu olub.

Buna baxmayaraq, yayda Çalhanoğlunun "İnter"dəki gələcəyi sual altında idi. Belə ki, o, Avro-2024 zamanı "Bayern"in yeni baş məşqçisi Vinsent Kompaninin əsas hədəfinə çevrilmişdi. Bildirilir ki, bavariyalılar keçən mövsüm titulsuz qaldıqdan sonra güclü orta xətti bərpa etmək üçün onu potensial oyunçu kimi görürdülər.

Mətbuat hətta "İnter"linin klubdan gizli Almaniya nəhəngi ilə şəxsi müqaviləsinin şərtləri ilə bağlı danışıqlar apardığını bildirmişdi. Məlumata görə, "Bayern" 30 yaşlı futbolçuya 4 illik müqavilə və İtaliyada aldığından daha yüksək maaş təklif edibmiş.

Üstəlik, "Bayern"nin onun üçün Milan klubuna təxminən 70 milyon avro ödəməyə hazır olduğu da deyilirdi.

Nəhayət, "Sky Sports"a verdiyi müsahibədə Çalhanoğlu yayda "Bayern"ə mümkün keçidi ilə bağlı yayılan şayiələrə toxunub. O, "Cüzeppe Meazza"dan ayrılmağa çalışdığı ilə bağlı deyilənləri qəti təkzib edib: “Məni tanıyanlar necə biri olduğumu bilirlər. Həmişə susuram və az danışıram. Heç vaxt ayrılmağı düşünməmişəm. Söz-söhbətlər çıxanda belə, “İnter”də qalacağıma əmin olmuşam. Bütün diqqətimi işimə yönəltmək istədim və hamını sakitləşdirmək üçün yalnız sonda danışmağa qərar verdim”.

"Calcio & Finanza"ya görə, Çalhanoğlu A seriyasında ən çox maaş alan dörd oyunçudan biridir. Viktor Osimhen "Napoli"dən ayrıldıqdan sonra Duşan Vlahoviç "Yuventus"da mövsümə 12 milyon avro xalis gəlirlə A seriyasının ən çox qazanan futbolçusu olub. Onun ardınca bu yaxınlarda yeni və daha sərfəli şərtlərlə müqavilələr imzalamış "İnter"in üçlüyü gəlir: əlavə bonusları saymasaq, 9 milyon avro ilə Lautaro Martinez və hər biri 6,5 milyon avro ilə Çalhanoğlu və Barella və üstəgəl bonuslar.

Təbii ki, Çalhanoğlunun 2023/24 mövsümünün “Qızıl top”unu qazanmaq şansı yüksək deyil. Nüfuzlu mükafatı almağa əsas namizədlərin reytinqini tərtib edən Goal.com da onu 15 futbolçunun olduğu siyahıya daxil etməyib.

Türkiyəli futbolçunun özü "İnter"dəki oyundaşı Lautaro Martinezin “Qızıl top”u alacağına ümid etdiyini bildirib: “O, bizim kapitanımızdır, komanda yoldaşlarını idarə etməyi bacarır və hər zaman yeni nəyisə necə etməyi yaxşı bilir. O, çox qol vurur və əsas da budur. Ümid edirəm ki, mükafata layiq görüləcək”.

Düzdür, “Qızıl top”u qazanmağa əsas namizədlər kimi, əsasən, "Real Madrid”in braziliyalı hücumçusu Vinisius Junior və “Mançester Siti”nin ispaniyalı dayaq yarımmüdafiəçisi Rodrinin adları çəkilir.

Qeyd edək ki, "Qızıl top"un yeni sahibi oktyabrın 28-də Parisdə elan olunacaq.

***Rasim***



# Çimərlik güləşçilərimizdən 1 qızıl, 1 bürünc medal



***Yunanıstanın Katerini şəhərində çimərlik güləşi üzrə Dünya Seriyasının IV mərhələsi keçirilib. Baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında yarışda iştirak edən hər iki güləşçimiz medal qazanıb.***

Ramiz Həsənov (80 kq) amerikalı Tayler Loethen (3:0), yunanıstanlı Aleksandros Spiliotis (5:0) və ukraynalı Maksim Bresə (2:1) qalib gələrək B qrupunun lideri kimi yarımfinala yüksəlib. Finalın bir addımlığında moldovalı Vasile Diakona (1:3) məğlub olan güləşçimiz Bresə yenidən qalib gələrək (3:0) bürünc medalı boynundan asıb.

İbrahim Yusubov (90 kq) A qrupunda maksimum nəticə göstərib. Çimərlik güləşi üzrə ikiqat dünya çempionu almaniyalı Kevin Qremm (3:0), ukraynalı Demid Karaçenko (3:0) və yaponiyalı Asahi İmamuradan (3:0) güclü olub. Yarımfinalda moldovalı Trayan Kapatinanı (3:1) üstələyən İbrahim finalda türkiyəli Mahmut Özkayaya qalib gəlib – 3:0. Bununla da Yusubov cari mövsümdə Dünya Seriyasında ilk dəfə qızıl medal qazanıb.

Beləliklə, çimərlik güləşçilərimiz Katerinidən 1 qızıl və 1 bürünc medalla qayıdır. Dünya Seriyasının sonuncu – final mərhələsi oktyabrın 12-13-də Xorvatiyanın Poreç şəhərində keçiriləcək.

# Fərid Əlibabazadə “Octagon” liqasında çempion olub

***Fərid Əlibabazadə (57 kq) Qazaxıstanın Almata şəhərində keçirilən MMA üzrə “Octagon” liqasında rinqə çıxıb. O, Askar Jaksilikovla kəmər uğrunda mübarizə aparıb. Fərid 5-ci raundda boğucu fənd işlədərək, qələbə qazanıb. Azərbaycanlı boksçu liqanın çempionu olub.***

Qeyd edək ki, Əlibabazadə keçirdiyi 17 görüşün 10-da qələbə qazanıb, 7-də uduzub.



# Azərbaycan qrupu ümumdünya yarışlarında qalib olub




***Portuqaliyanın Gimaraeş şəhərində akrobatika üzrə yaş qruplarında ümumdünya yarışları başa çatıb.***

13-19 yaşlı idmançılar arasında keçirilən yarışda Nəzrin Zeyniyeva, Zöhrə Rəşidova və Anahitə Bəşirlidən ibarət Azərbaycan qadın qrupu finalda uğurlu çıxış edib. Gimnastlarımız ən yaxın izləyiciləri - İsrail və Portuqaliyadan olan rəqiblərini qabaqlayaraq qızıl medallar qazanıblar.


PALIDDAN
HAZIRLANMIŞ
KÖMÜR
РУССКИЙ ПРОДУКТ
УГОЛЬ ДРЕВЕСНЫЙ
100% ORGANIC
RUSİYA MƏHSULU
Bizim manqal kömürümüz!
+99455 390 36 11
a.mamedov65@gmail.com


barlı
C vitaminli, bol meyvəli
Barlı kompotları için!
barlı
Zoğal kompotu
Ziya Bünyadov 2096
Bakı, Azərbaycan
info@barli.az
+99450
+99455
+99470
749 22 22
www.barli.az

# FILTREX

## Suyunuz şirin gəlsin




Hər növ su təmizləmə sistemləri :
-Əks osmos sistemləri
-Yumuşaldıcı avadanlıqlar
-Mexaniki təmizləmə filtrləri
-Ultrafiltrasiya
-Sənaye və magistral filtrləri
-Kafe və restoranlar üçün filtrlər
-Hovuzların tikintisi və qulluğu

www.filtrex.az info@filtrex.az +994 50 224 61 04

AZART

# AZART EXCLUSIVE CAR STYLING

Azərbaycanda lüks sinif avtomobillərin yüksək keyfiyyətli tuningi, restaylı və bərpası.




- TUNİNG İŞLƏRİ
- EHTİYYAT HİSSƏLƏRİ
- RESTAYL - FACELİFT
- İNTERYER DİZAYN
- VİNİL İŞLƏRİ
- KARBON ÜZLƏNMƏ
- SƏS BOĞUCU SİSTEMİN YIĞILMASI
- AUDİO SİSTEM
- DİSKLƏRİN BƏRPASI
- DƏMİRÇİ İŞLƏRİ
- BATIQLARIN BƏRPASI
- RƏNGSAZ-MALYAR
- MÜHƏRRİK İŞLƏRİ
- ÇİLİNGƏR
- ELEKTRİK
- DİAQNOSTİKA
- ADAPTASİYA
- KİMYƏVİ TƏMİZLƏMƏ
- POLİROVKA
- KERAMİKA 9H PRO

Address: AZ1001
Azerbaijan Baku
Faiq Yusifov 71,
(Nərimanov keçmiş Pekin restoranının yanı)

Address: AZ1001
Azerbaijan Baku
Yusif Vəzir Çəmənzəminli 5
(Olimpik Star idman kompleksinin yanı)

azart_tuning
tuningservice.az
www.az-art.az

+99455 855 77 66
+99450 978 55 55

Bioloji Təbabət Klinikası






Göyçay Bioloji Təbabət Klinikası

Masallı Bioloji Təbabət Klinikası



Sumqayıt Bioloji Təbabət Klinikası

# BİOLOJİ TƏBABƏT KLİNİKASI

- (012) 430 89 89
  (050) 430 89 89
- bioloji.tebabet
- biolojitebabetklinikasi
- btk.az
- info@btk.az
- Bakı şəhəri, 3 mkr., S.C. Pişəvəri küç 110
  M.Əcəmi m.st. yaxınlığı

# MONARCH PREMIUM RESIDENT

ALANYA / KARGICAKTA SİZLER İÇİN ÖZEL OLARAK İNŞAA EDİLMİŞTİR.









Monarch Premium Resident, İtalyan mimarisinden ilham alarak tasarlanmış, içi ve dışıyla gerçekten dikkat çekici bir proje olup Kargıcak'ın en kaliteli ve prestijli lüks konut projesidir. Bu muazzam daireler, alışveriş ve yemek merkezlerine yakın, denize yürüme mesafesinde yer almakta olup aynı zamanda bütün dairelerimiz deniz manzarasına sahiptir. Monarch Premium Resident, yaşamınıza değer katacak bir lüks deneyim sunmaktadır. Sizi bu benzersiz konut projesini keşfetmeye davet ediyoruz!

İnşaatı tamamlanan dairelerimiz Antalya / Alanya - Kargıcak bölgesindedir.
Dairelerimizin tamamı deniz manzaralıdır.
3+1 Doublex Daireler 450.000 €'dan, 2+1 Doublex Daireler 460.000 €'dan ve 1+1 Geniş Daireler 250.000 €'dan başlayan fiyatlarla...

İletişim için
Whatsapp Hattı:
+90 555 170 90 03

Adres : Kargıcak, Maklinistler Sk.
No:3, 07400
Alanya / Antalya